# İntiqamı döyüş meydanında alınan Xocalı

**"Azərbaycan xalqının Xocalıya qayıdış həsrətinə artıq son qoyulub. Erməni canilərinin xalqımıza qarşı törətdikləri cinayətlərin qisası alınıb. Reallıqlar vəziyyəti dəyişib, indi xocalılıların doğma yurda qayıdışı üçün şəhərdə yenidənqurma işləri intensiv şəkildə həyata keçirilir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Deputat bildirib ki, Xocalı soyqırımı 32 ildən sonra fevralın 26-da ilk dəfə məhz Xocalının özündə anılacaq: "Bu həm hüznlü, həm də qürurlu gündür. Biz həmin gün şəhidlərimizin xatirəsini anacaq, onlara ömür boyu minnətdarlıq borcumuzu bir daha ifadə edəcəyik. Şəhidlərimizin ruhunu məhz azadlığına qovuşmuş Xocalıda anmaq xalqımıza qürur hissləri yaşadır. Bütün torpaqlarımızın, o cümlədən Xocalımızın düşməndən, işğalçı, terrorçu və separatçılardan azad olunması Azərbaycan xalqının qürurunu özünə qaytarıb. 32 il ərzində Xocalıya qayıdış həsrəti ilə yaşayan xalqın həsrətinə son qoyulub. İndi xocalılıların doğma yurd-yuvalarına qayıdışı üçün dövlətimiz tərəfindən orada yüksək səviyyədə və sürətli şəkildə bərpa-quruculuq işləri aparılır. İnşallah, ən yaxın gələcəkdə Xocalıya ilk köçə şahidlik edərik".

Deputat qeyd edib ki, elə bir gün gələcək, xocalılılara qarşı törədilən qanlı cinayətlərə və soyqırımlarına görə bütün cani ermənilər cavab verəcəklər: "Bu yaxınlarda Xocalıda yenə kütləvi məzarlıq aşkarlandı. Ermənilər əsir və girov götürdükləri insanları vəhşiliklə qətlə yetirmiş, sonra isə onları kütləvi şəkildə torpağa basdırıblar. Bu, vandalizmin, erməni vəhşiliyinin, onların bizə qarşı olan tarixi düşmənçiliklərinin növbəti sübutudur. Bütün bunlar təsdiq edir ki, strateji mövqeyinə görə düşmənin əsas hədəflərindən birinə çevrilən Xocalının başı yaman dərdlər çəkib. Lakin şükürlər olsun ki, bu gün Xocalının qisası alınıb, Azərbaycan Ordusu düşmənin başına "dəmir yumruq" endirib".

Elman Məmmədov onu da deyib ki, işğalçını müdafiə edən, ermənilərdən çox ermənilik edən Makronkimilər Xocalı soyqırımının ildönümü ərəfəsində ciddi narahatlıq keçirirlər: "Xocalı soyqırımı zamanı insanlarımızın başına açılan min bir əzab-əziyyət bütün dünyaya məlumdur. Ümumiyyətlə, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. Ona görə də ermənilərin müdafiəsinə qalxanlar utansınlar, xəcalət çəksinlər ki, gör kimlərin, necə cinayətkarların tərəfini saxlayırlar. Ancaq görünən odur ki, nə ermənilərdə, nə də onların havadarlarında utanan üz, abır-həya yoxdur. Onlar körpələri, qadınları, qocaları güllələyən, ağlasığmaz dərəcədə ağır cinayətlər törədən erməniləri müdafiə edirlərsə, deməli, elə özləri də ermənidən betər cinayətkardırlar. Elə Fransanın öz tarixinə nəzər salsaq, görərik ki, bu ölkə tarixin müxtəlif çağlarında dünya çapında qanlı qətliamlar törədib".

Deputat qeyd edib ki, Xocalının qisasının alınması Azərbaycan xalqının qürur yeri, şərəf səhifəsidir: "İnşallah, yaxın gələcəkdə biz də Xocalımıza qayıdarıq. Bizə bu fəxarət hissini yaşatdığına görə Ali Baş Komandan İlham Əliyevə və şanlı ordumuzun əsgər və zabitlərinə təşəkkürümüzü bildiririk".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

